

■ Gülayə

## GƏLDİM

Dəfn eyləyib qürbətdə mən qürbət həvəsimi,
Sənə götürüb gəldim son nəğməmi, səsimi.
Son sözümü son kərə, sonda sən nəfəsimi,
Son ümidim sən idin, sənə gətirib gəldim.

Mən saxlaya bilmədim, üstümdən ötən ömrü,
Yaşamadım bircə an qürbətdə Vətən ömrü,
Sənsizlikdə, sevdiyim, axtardım itən ömrü,
Tükənib-bitən ömrü sənə götürüb gəldim.

Yeri-göyü yandırar, közüm arıq qalmasın,
Üstünə qəm yeriyər, izim açıq qalmasın.
Bircə ovuc torpaq tök, gözüm açıq qalmasın,
Sonunda gözlərimi götürüb sənə gəldim.

Köksümü çıraq tutdum, yollar məni haqladı,
Yollardan yol istədim, yollar məni saxladı.
Ayağına sərildim, yollar məni ağladı,
Yolların göz yaşını götürüb sənə gəldim.

Mən özümdən atıldım, özümə xoş gəlmədim,
Dözdüm bəla bəhrinə, dözümə xoş gəlmədim.
Könlümüzün evinə əlləri boş gəlmədim,
Sənə olan sevgimi sənə götürüb gəldim.

Ümidini demədim üz, dərində dəfn elə,
Bu dözülməz dərdini, döz, dərində dəfn elə,
Öldür məni, sevdiyim, gözlərində dəfn elə.
Sənə qurban canımı götürüb sənə gəldim.

## YARASI AĞRIYIR ŞEİR BALAMIN

Başı bəlalıdır, anası ölsün,
Hələ də bilmirəm, bilmirəm ki, mən
Harası ağrıyır şeir balamın.

Yarası birdirmi, beşdirmi biləm,
Canında göynəşən saysız-hesabsız
Yarası ağrıyır şeir balamın.

Yandır göynəyimi yarasına bas,
Göyləri yandıran onun ahıdır.
İllərin ağrısı canında gəzir,
Köksü min illərin nişangahıdı.
Yarası ağrıyır şeir balamın.

De, hansı dərdimi arayım, açım,
Köksündə hər yara bir tarix yazıb.
Nəyə inanırsan, nəyə and içim,
Özünün qəbrini öz əli qazıb -
Yarası ağrıyır şeir balamın.

Atdım yaylığımı ayaqlarına,
Nə kədər dinlədi, nə də qəm məni.
Ümidim sən idin, duymadın sən də,
Bircə sən duyardın, bircə sən ancaq
Harası ağrıyır şeir balamın.

Nağıl çıxaranın evi yıxılsın,
Evimi nağıllar yıxıbdır mənim.
Çıxıbdı başımdan ağıl, danışma,
Onsuz da bir ömür yatıb qalmışam,
Sən mənə bir daha nağıl danışma,
Yarası ağrıyır şeirlərimin.

## TORPAĞIN ÜSTÜNDƏ BİR ŞƏHİD GƏZİR

Torpağın üstündə bir şəhid gəzir,
Tanıyan yox hələ, bilən yox hələ.
Yaşayan görünüb, ölən görünüb,
Belə yaşayan yox, ölən yox belə.

Torpağın üstündə bir şəhid gəzir,
Soruşan yoxdur ki, ay bala, kimsən?
Soruşan yoxdur ki, kimlərdənsən sən,
Sən hardan gəlirsən, hara gedirsən?

Torpağın üstündə bir şəhid gəzir,
Alınıb, satılıb, bazarı yoxdur.
Torpağın üstündə bir şəhid gəzir,
Torpağın altında məzarı yoxdur.

Torpağın üstündə bir şəhid gəzir,
Gündə neçə kərə ölüb-dirilib.
Gül açıb köksündə qanlı güllələr,
Ölümün üzünə gülüb, dirilib.

Torpağın üstündə bir şəhid gəzir,
Yuyur qanı ilə topağı, daşı.
Görən yox şəhidi, şəhid görür ki,
Hərənin özünə qarışıb başı.

Torpağın üstündə bir şəhid gəzir,
Yerin xəbəri yox, çatıbdır göyə.
Torpağın üstündə bir şəhid gəzir -
Bu torpaq məzara dönməsin deyə.

Torpağın üstündə bir şəhid gəzir,
Şəhid arzuların şəhid anıdır,
Gözünüz önündə gəzən şəhidin
Ürəyi Şəhidlər xiyabanıdır.

Torpağın üstündə bir şəhid gəzir,
Gülayə, bu dərdi sinirmir sinəm.
Ölür ürəyimdə bir istək mənim:
Deyə bilmirəm ki, o şəhid mənəm.

## QORXURAM SAĞALAM BU XƏSTƏLİKDƏN

Qorxuram sağalam bu xəstəlikdən,
Ayrılam dərdimdən, dərmanlarımdan.
Qorxuram sağalam, çıxıb gedəsən,
Ayrıla can gedə, canım, canımdan.

Dəyişə yerini axşam sabahla,
Bilməyəm gündüzdü, bilməyən gecə.
Boğulan sükutun səssizliyində,
Bir ömür şam kimi əriyə, keçə.

Görməyəm bir daha səni yenidən,
Məni tərk edəsən-sağaldım deyə.
Özün öldürəsən məni yenidən,
Sağalmaz dərdimi sağ aldım deyə.

Özün tanıyırsan həmin qılıncı,
Yarır sinəsini qara daşın da.
Mənim başım ola, qəmin qılıncı,
Sənin həsrətinin son savaşında.

Qorxuram sağalam bu xəstəlikdən,
Soruşan olmaya məndən “necəsən?”
Qopa məhvərindən dünyam, yıxıla,
Yanımdan yad kimi gəlib keçəsən.
Qorxuram sağalam bu xəstəlikdən,
Qollarım bağlana dizimə mənim.
Hər səhər əlinlə açdığın qapı
Ömürlük bağlana üzümə mənim.

Qorxuram sağalam bu xəstəlikdən,
Sevinəm, sevincim bir anlıq ola.
Qəfil soyunasan ağ xalatını,
Dünya qara geyə, qaranlıq ola.

Qorxuram sağalam bu xəstəlikdən,
Dərdin ürəyini üzə dərdimin.
Bu dərdin adını özün qoy, həkim,
Adı qoyulmayıb təzə dərdimin.

## İNDİ NECƏ ÖLÇÜM BOYUNU SƏNİN

Bizim saydığımız qaldı bir yana,
Sevdiyim gördünmü fələk nə saydı.
Mənim boyum səndən bir xeyli uca,
Sənin boyun məndən bir az qısaydı-
Ayağnın altına sən daş qoyardın,
Heç vaxt unutmaram o anlarını....
Boyumuz bərabər görünsün deye,
Göyə qaldırardın dabanlarını.
Boyunu ölçərdin hər səhər ,axşam,
Bildiyim, bir sirri gizlədərdin sən.
Məni sevdiyini deyə bilməzdin,
Boyun uzanmağı gözləyərdin sən.
Hərdən düzülərdik,boy sırasına,
Bütün uşaqlardan geri qalardın.
Baxıb tay-tuşların boyuna gizlin,
Gizlin köks ötürüb, fikrə dalardın.
Məni sevənlərin sayı çox idi...
Heç kimin qisməti-payı bilinmir.
Təkcə mən sevərdim səni o zaman,
İndi sevənlərin sayı bilinmir.
Bir göz qırpımında dəyişdi zaman,
Tanıdı adını,soyunu sənin.
Boyun başdan-başa vətən boydadır
İndi necə ölçüm boyunu sənin

İndi sənin boyun hamıdan uca,
Səni əzəl gündən könlüm ,düz andı.
İllərlə daş yığdım, ayağmın altda,
Boyuna baxmaqdan boyum uzandı.
Köksün məşəl ,olub,köynəyin bayraq,
Ölçü meyarısan, haqqa,düzlüyə.
Ayağın torpaqda,başın göylərdə,
Çoxdan qovuşmusan ölçüsüzlüyə.
Axı kim bilərdi,necə bilərdi,
Sənin oyuncağın od daşı imiş.
Ayağnın altına qoyduğun o daş,
Bir eşqin ölümsüz yaddaşı imiş.

GÜLAYƏ.Ş. 19.02.2015

## ONA DEYİN GETMƏSİN

Bu həsrətin odunda,hava yanar,su yanar,
Göydə Tanrı alışar, yerdə hava, su yanar,
Ahımdan od tökülər, yanar havası yanar,
Yurdu yuvası yanar, ona deyin getməsin.
Dünya edam meydanı,qurulubdu,dar,gedir,
Yara alıb yaramdan,yaralanıb,yar, gedir.
Elə bilki, sevdiyim küllü-aləm var gedir,
Könlüm intizar gedir, ona deyin getməsin.
Dilim quruyar desəm,qollarını bağlayın,
Yollara əklil düzün, gül kolları bağlayın.
Yıxılın ayağına, yollarını bağlayın,
Mən gəlincə saxlayın,ona deyin getməsin.
Ocaq çatın bilmirəm, külə tutun siz onu,
Köynəyinə gül taxın, gülə tutun siz onu,
Can deyin inciməsin,dilə tutun siz onu,
Amanın bir günüdür,ona deyin getməsin.
Dolanım başına mən , bəlası mənə gəlsin,
Ah,amanı deyin ki, nəvası mənə gəlsin.
Bütün ağrı-acısı, qadası mənə gəlsin,
Yalvarıram dayansın, ona deyin getməsin.
Dönəcəm dönə-dönə son səsinə gedəcəm,
Son nəfəstək ucunub ,nəfəsinə gedəcəm,
O,getsə, mən bu yolu,kəsəsinə gedəcəm,
Onda dönüb deyəcək, ona deyin getməsin.
Əzəl gündən saymışam, dərdi saya gəlməmiş,
Saydığımı sevdiyim saya-saya gəlməmiş,
Bir ümidim doğulub,bu dünyaya gəlməmiş,
Bu dünyadan gedir o,ona deyin getməsin.

## TOPRAĞIN ALTINA BİR ŞAİR ƏKDİM BİR ŞEİR CÜCƏRDİ TOPRAĞIN ÜSTDƏ

Nə əksən torpağa bitər dedilər,
Azımı, çoxumu əkdim torpağa.
Torpağın yuxusu qaçmasın deyə,
Gözümün yuxusun əkdim torpağa.
Bir gözümdə gülüş,bir gözümdə yaş,
Gördüm ki, qəlbində ağrı, acı var.
Torpaq gözlərimi torpağa əkdim,
Torpağın torpağa ehtiyacı var.
Mən elə bildim ki,ümid bitirdim,
Dedim ki,itmədi əkdiyim ümid.
Nə əksən torpağa bitər dedilər,
Bitmədi bir ömür əkdiyim ümid.
Könlümün möhürün vurdum, biləsən,
Köksünə kök atan hər tağın üstə.
Torpağın altına bir şair əkdim,
Bir şeir göyərdi torpağin üstə.

*GÜLAYE.Ş.*